İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 15 İYUL 2021-Cİ İL №013 (136)

Səh. 2 YERİYƏN YALANLAR - İBRAHİMXƏLİL YAZIR

Səh. 3 15 İYUL – QARDAŞ BİRLİKLƏR VƏ DÜNYADA FETÖ FƏALİYYƏTLƏRİ

Səh. 5 NƏNƏLƏR VƏ BABALAR - AFAYƏT AFİQ YAZIR

Səh. 5 GÖZƏ KÜL ÜFÜRMƏK - EVA (Şənhəyat) SADİQ YAZIR

Səh. 6 “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” - MİRZƏ MƏMMƏDOĞLUNUN TƏRCÜMƏSİNDƏ

Səh. 7 CƏNGAVƏRLİKDƏN BAYKERLİYƏ - AFİQ MUXTAROĞLU YAZIR

Səh. 7 TEXNOLOJİ DƏYİŞİKLİKLƏRİN TİCARƏTƏ TƏSİRİ- SƏLAHƏDDİN PİRİYEV YAZIR

## BAŞ EPİDEMİOLOQ: PANDEMİYANIN DÖRDÜNCÜ DALĞASINA DAXİL OLA BİLƏRİK



“Gürcüstan çətin vəziyyətlə üzüzədir, çox güman ki, pandemiyanın dördüncü dalğasına daxil ola bilərik”. Bunu ölkənin Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri, baş epidemioloq Amiran Qamkrelidze deyib.

O, ölkədə epidemioloji vəziyyətin getdikcə ağırlaşdığını bildirib.

“Milli Mərkəz Koordinasiya Şurasına vaksinasiyanın intensivləşdirilməsi, testlənmənin daha da genişləndirilməsi və mövcud qayda və məhdudiyyətlərə tam əməl edilməsi ilə bağlı tövsiyələr təqdim edib”, - A.Qamkrelidze deyib.

Baş epidemioloq həmçinin təklif edib ki, konfrans və toplantılarda vaksinin hər iki dozasını vurdurmuş və ya son 72 saat ərzində aparılmış PCR testinin mənfi nəticəsini təsdiqləyən arayış təqdim edən şəxslərin iştirakına icazə verilsin.

## BAŞ NAZİRƏ İKİ YENİ MÜAVİN TƏYİN EDİLİB



Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə iki yeni müavin təyin olunub. O, bu barədə hökumətin iclasında bildirib.

Baş nazirin sözlərinə görə, yeni müavin postlarını mədəniyyət, idman və gənclər naziri **Tea Tsulukiani** və ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri **Levan Davitaşvili** tutacaq.

Bununla İ.Qaribaşvilinin müavinlərinin sayı 3 nəfərə çatıb.

Xatırladaq ki, xarici işlər naziri **David Zalkaliani** də baş nazirin müavinidir.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 5503 NƏFƏRƏ ÇATIB




İyulun 15-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan ölənlərin sayı **5503** nəfərə çatıb. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı **382734** nəfər, sağalanların sayı isə **362491** nəfər olaraq göstərilib. Bu günə kimi 324802 nəfər COVID-19 əleyhinə peyvənd olunub.

Ölkə üzrə karantin rejimində **55** nəfər, stasionar nəzarətdə **3838** nəfər, COVID mehmanxanalarda olan şəxslərin sayı **1065** nəfə olaraq göstərilib.

## ƏHALİNİN KÜTLƏVİ PEYVƏNDLƏNMƏSİ PROSESİNƏ STATR VERİLİB




İyulun 5-dən Gürcüstanda əhalinin koronavirus əleyhinə kütləvi peyvəndlənməsi prosesinə start verilib. Prosesə 350-yə yaxın tibbi briqada cəlb olunub.

Gün ərzində 20 mindən 30 minədək insana vaksin vurulması nəzərdə tutulub. İlin sonuna qədər kollektiv immunitetə nail olmaq üçün yetkinlik yaşına çatmış əhalinin 60 %-nin peyvəndlənməsi planlaşdırılır.

Ölkə kütləvi vaksinasiyada tətbiq olunacaq milyon dozadan ibarət “Sinopharm” və “Sinovac” preparatlarını iyulun 2-də tədarük edib. Prosesdə Avstriyanın bağışladığı və iyulun 4-ü Tbilisiyə çatdırılan 5 min doza “AstraZeneca” peyvəndindən də istifadə olunacaq.

Həmçinin iyulun 14-ü ABŞ-Almaniya istehsalı olan “Pfizer” peyvəndinin növbəti partiyası tədarük edilib. İstehsalçı ilə əldə olunan razılığa əsasən, 1 000 350 peyvənd dozası Gürcüstana mərhələli şəkildə çatdırılacaq. “Pfizer”lə vaksinasiyaya iyulun 16-dan başlanılacaq.



# YERİYƏN YALANLAR

XVI əsrdə qoca Avropada yüzlərlə cəngavərlik romanı yazılmışdı.

Və bu mitil-şitil meyl də o qədər artıbmış ki, zaman özü buna qarşı olan, yəni cəngavərlik romanlarına nizə çevirən bir əsər tələb edirmiş.

Belə bir romanı Servantes yazdı. Bu, "Lamançalı Don Kixot" romanı idi.

İndi aradan dörd əsrdən artıq vay-haray vaxt keçir. Çürükçülük olmasın, amma bilirəm sizi inandırmaq çəmən-çayır çətin olacaq: bir zamanlar Süsən-Sünbülü səbir-qərar, sallan-bullan gəzəydin, bir yalan da tapmazdın. Orda yalan, burda yalan. Girvənkə-tərəzi, gəzhagəz, bircə yalan da tapmazdın; sanki bir parça yelayaq yağlı əppəy olub göyə çəkilib.

Amma bir zamanlar yalanlara yer olmayan Süsən-Sünbüldə yalan-palan birdən-birə o qədər artdı ki, sanki rəng-rövnəq cəngavərlik romanları yazılır. Onda qoca Avropanın, Servantesin, Don Kixotun, Sanço Pansanın, Yel dəyirmanlarının pərəstişkarı olan Mirzə Səməndər qərara gəldi ki, yalanlara qarşı mübarizəyə başlasın. Çünki o, hesab edirdi ki, ataların "Yalan ayaq tutar, amma yeriməz" məsəli daha buralarda işləmir. Açığı, yüz bir səbəbdən biri, bəlkə də elə birincisi Süsən-Sünbülün yalan "ixrac" edən məkanlardan yalan "idxal" eləməyi idi. Amma əsas "istehsal" yerli yalanqozlara-yalançılara məxsus idi. İddia edirdilər ki, Süsən-Sünbülü yalanlarla idarə etmək asandır. Hətta Platona (Əflatun) isnad eləyənlər də peyda olmuşdu. Sən demə, bu perifraz, pərvaz Platon öz "Dövlət" adlı dialoqlar əsərində yazıb ki, ideal dövlətlərin filosof-çarları məmləkətin rifahı üçün xeyli "müqəddəs və xeyirxah" yalanlar yaymalıdırlar.

Doğrudur, misilləmə misal üçün, lakonik sözün əmiri Emerson buyurub ki, sitatları görməyə gözüm yoxdur, mənə bildiyindən danış. Buna baxmayaraq, sizə Mirzə Səməndərin topladığı bir neçə "səmayi-şəms" sitat gətirdiyim üçün gərək bağışlamağı bacarasınız.

Əvvəla, Mirzə Səməndəri ən çox ağrıdan bu idi: bir halda ki, artıq bəzi ölkələrdə hətta heyvanlar da "mal" deyil, "can" sayılır, onda bizdə niyə bunun tərsidir? Niyə bir zamanlar yalan üzünə "həsrət" qalan Süsən-Sünbül indi hədərən-pədərən yalanlar heyranıdır? Riyalı, təhrifli, mistifikasiyalı, manipulyasiyalı yalanlar, psixiatrik fenomen yalanlar, simulyasiyalı sintetik yalanlar...

Yalan – aldatmaq məqsədilə deyilən əsassız sözə, yəni doğrunun, gerçəyin ziddinə deyilir. Bunu bilə-bilə bu qədər yalan "briqada"ları, şalbanbaş yalan şəbəkələri, hətta yalan şirkətləri yaradılıb. Nə etməli? Çox dedik, Mirzə Səməndər az eşitdi. Bir yalana inanmaqla insanın düzlüyü-dürüstlüyü əldən getməz axı! Amma hər eşitdiyini danışanlar korlayırdı hər şeyi.

...Mirzə Səməndər əvvəlcə dünyada yalançıları ifşa eləməyin mahir ustası sayılan Sten Uolterin yalan mövzusunda yazdığı kitabını tərcümə eləməyə başladı.

Mirzəyə təklif elədilər ki, yaxşısı budur, yalanla mübarizə fondu yaratsın. Çünki buralarda qeyri-hökumət təşkilatları bayraqları altında yetmişdən artıq fond (?!) yaradılmışdı. Alkoqola, erkən evliliyə, rüşvətə, narkotikə, qadınlara zorakılığa (və s.) qarşı yaradılan bəzi fəlakətzədə fond müəllifləri iddia edirdilər ki, işlər çox uğurlu gedir. Yəni o qədər uğurlu gedir ki, əslində hökumətə bir iş qalmır.

Qəribə idi. Yeriyən yalanlar yuvasında hamı səmimiyyətdən danışırdı...

Hətta bəzi belə idbar iddialar da dolaşırdı ki, bəs deməzsənmi, əslində yalançı – yalanı söyləyəmməyən adama deyilməli imiş. Çünki yalanı söyləyən guya daha yalançı deyilmiş. Allah, Allah...

Mirzə Səməndərin ipə-sapa düzdüyü sitatları da qarışdırdım. Amma daha böyük günahlar var imiş! Belə ki, hər adam yaşadığı altmış il ərzində az qala yüz minə yaxın yalan danışırmış! Hələ Münhhauzen sindromu və s.

Mirzə Səməndər, az qala Servantes misilli, qələm götürdü. Yalan "cəngavərləri"nə qarşı qələm-kağızla çox döyüşdü. Bir şey çıxmadı. Dəryaz götürdü: yeriyən yalanları kərəntiləyirmiş kimi! Bundan da bir şey çıxmadı.

Və günlərin bir gülümbahar günü eşitdim ki, çıxıb Şotlandiyaya gedib. Guya oralarda yalan yox imiş. Çünki Şotlandiya bu boyda düyünlü-düyünçəli dünyada yalnız İngiltərəyə qarşı imiş! Amma o da... futbolda.

Yeri gəlmişkən, Şotlandiyanın adı gələrkən Mirzə Səməndər dərhal oraların xalq şairi Robert Bernsi xatırlayırdı (ən çox da onun "Busə" şeirini), mən isə məşhur şotland tuluq zurnaçılarını.

P.S.

"İnək – otu, pas – dəmiri, yalan – ruhu yeyir". Bu, ifadə Mirzə Səməndərin sitat dəftərindəndir. Təəssüf ki, müəllifinin adı silinib. Yoxsa sizə göstərərdim.

...Şotlandiyaya salamlar olsun!

***İBRAHİMXƏLİL***

# AZƏRBAYCANIN MƏDƏNİYYƏT NAZİRİ BAŞ NAZİR İRAKLİ QARİBAŞVİLİ İLƏ GÖRÜŞÜB



Gürcüstanda rəsmi səfərdə olan Azərbaycanın mədəniyyət naziri Anar Kərimov Baş nazir İrakli Qaribaşvili ilə görüşüb. Görüşdə bölgədəki vəziyyət nəzərdən keçirilib.

İ.Qaribaşvili Gürcüstanın suverenliyi və ərazi bütövlüyünə göstərdiyi qətiyyətli dəstəyə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirib. O, Gürcüstanın Azərbaycanın ərazi bütövlüyünə dəstəyini bir daha təsdiqləyib.

Tərəflər Gürcüstanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında əldə olunan humanitar razılaşmaya da toxunublar.

Hər iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlıq məsələsi ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Gürcüstanın mədəniyyət, gənclər və idman naziri Tea Tsulukiani də iştirak edib.

# AŞIQ KAMANDARIN EV MUZEYİNİN AÇILIŞI OLUB




Marneuli rayonunun Kəpənəkçi kəndində Aşıq Kamandar Əfəndiyevin ev muzeyinin təmirdən sonra təntənəli açılış mərasimi keçirilib.

Ev muzeyinin təmirini Türkiyənin Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) həyata keçirib.

Mərasimdə Azərbaycanın mədəniyyət naziri Anar Kərimov, Gürcüstanın mədəniyyət, idman və gənclər nazirinin birinci müavini Kaxa Sixarulidze, Azərbaycan və Türkiyənin Gürcüstandakı səfirləri - Faiq Qulyev, Fatma Ceren Yazqan, TİKA nümayəndələri, Marneuli bələdiyyəsinin rəhbər şəxsləri, aşığın yaxınları və kənd sakinləri iştirak ediblər.

Mərasimin rəsmi qonaqları aşıq sənətinin təbliğindəki xidmətlərinə görə "Aşıq Kamandar" medalı ilə təltif olunublar. Sonra yerli aşıqların ifasında nəğmələr təqdim olunub.

Qeyd edək ki, Aşıq Kamandar Azərbaycan ozan-aşıq sənətinin korifey sənətkarlarından biridir. O, "Azərbaycanın əməkdar mədəniyyət işçisi" (1984) fəxri adına və Gürcüstanın yüksək mükafatı olan "Şərəf" ordeninə (1999) layiq görülüb.

# TEA TSULUKİANİ: AZƏRBAYCAN VƏ GÜRCÜSTAN QIRMIZI KÖRPÜNÜ BİRGƏ BƏRPA EDƏCƏK

Gürcüstan və Azərbaycan Qırmızı körpü abidəsini birgə bərpa etməklə bağlı müzakirələr aparır. Bu barədə Gürcüstanın mədəniyyət, idman və gənclər naziri Tea Tsulukiani Azərbaycanın mədəniyyət naziri Anar Kərimov ilə keçirdiyi görüşdən sonra jurnalistlərə açıqlamasında deyib.

Nazir bildirib ki, Qırmızı körpü həm Gürcüstan, həm də Azərbaycanın mədəni irs abidəsidir: "Biz bu abidənin qayğısına bir yerdə qalmalıyıq. Körpünün konservasiyası və bərpası işləri elə həyata keçirilməlidir ki, hər iki ölkə bununla fəxr etsin".

Qırmızı körpünün Azərbaycanda "Sınıq körpü" adlandırıldığını qeyd edən T.Tsulukianinin sözlərinə görə, dostcasına və peşəkarcasına bərpadan sonra abidə qürur rəmzinə çevriləcək.

O, azərbaycanlı həmkarı ilə görüşdə bir sıra mühüm məsələlərin müzakirə olunduğunu qeyd edib: "Biz kino sənayesi, muzeylər, yaradıcı sənayelər arasında əməkdaşlıq, tarixi abidələrin qorunması və bərpası üzrə təcrübə mübadiləsinə dair razılığa gəldik".

Nazir vurğulayıb ki, YUNESCO çərçivəsində Gürcüstan və Azərbaycan qarşılıqlı dəstəyi, bir-birinin maraqlarının müdafiəsini aktiv şəkildə davam etdirəcək.

# 15 İYUL – QARDAŞ BİRLİKLƏR VƏ DÜNYADA FETÖ FƏALİYYƏTLƏRİ




**FETÖ QURULUŞU**

FETÖ adıyla bilinən Fətullahçı terror təşkilatı ilk olaraq Türkiyənin İzmir şəhərində ortaya çıxmışdır. Fətullah Gülən adında təqaüdçü bir din adamının başında olduğu təşkilat 70-ci illərdə təhsil sahəsində fəaliyyət gəstərən bir qrup olaraq ortaya çıxmışdır. Gerçəkdə isə təşkilat təhsil fəaliyyətlərini örtük olaraq istifadə edərək əhatəsini genişlətmişdir. FETÖ qrupu özünü təhsil və sülh könüllüsü olaraq tanıdaraq həm təhsilli işçilər yığmış, həm də mühafizəkar təhsilli şəxsiyyəti ilə dindar kəsimin simpatiyasını qazanmışdır.

Bununla birlikdə, Türkiyədə və əlaqədar ölkələrdə FETÖ təşkilatlanmasına baxıldığında yalnız mühafizəkarlıq üzərindən deyil, gerçək şəxsiyyətlərini gizləyərək çox fərqli şəxsiyyətlər üzərindən (sol, sağ, liberal, dindar) hərəkət edərək dövlətlərin, ordu, məhkəmə, təhlükəsizlik, kəşfiyyat və bürokratiya kimi kritik yerlərinə yerləşdikləri görülməkdədir. Fəaliyyət göstərdiyi ölkələrdə özünü Xidmət Hərəkatı olaraq tanıdan terror təşkilatının əslində gerçək məqsədi bu ölkələrdə müxtəlif addımlarda kritik nöqtələri ələ keçirmək olmuşdur.

FETÖ terror təşkilatı xüsusilə dindar xalqın dini duyğularını istismar edərək "himmət" adı altında yığdığı köməkliklər sayəsində Türkiyədə və xaricdə təhsil müəssisələri açaraq təşkilatın məqsədlərinə görə insan qaynağı yetişdirməyi və bu insan qaynağını dövlətlərin kritik nöqtələrinə sızdırmağı qarşısına məqsəd qoymaqdadır. Bu məqsəd istiqamətində dövlətin içərisindəki strateji mövqe və təşkilatları ələ keçirən terror təşkilatı dövlət içərisində sanki paralel bir dövlət quruluşu kimi təşkilatlanmaqdadır.

FETÖ təşkilatlandığı ölkələrdə məktəb, təhsil/mədəniyyət mərkəzi, peşə quruluşu kimi görünərək fəaliyyət sahəsini sürətlə genişlətməkdədir. Terror təşkilatı üzvləri məqsədlərinə çatmaq üçün azğın dini inancları səbəbiylə hər cür təqiyyə, böhtan, sui-qəsd, tələ və qeyri-qanuni bütün fəaliyyətləri qanuni göstərməkdədir. Xüsusilə daha radikal olan və kiçik yaşlarda təşkilata qatılan üzvlər uzun illərə dayanan gizli təhsil və razı salma fəaliyyətləriylə sözdə "seçilmişlik ruhu" və "fədailik" içərisində dondan-dona girə bilməkdə, məqsədə gedən hər yol mübahdır fəlsəfəsi ilə yeri gəldiyində cinayət də daxil, hər cür qeyri-qanuni fəaliyyəti reallaşdıra bilməkdədir. 90-cı və 2000-ci illərdə Türkiyədə işlənən bir çox sui-qəsd və hücumda təşkilatın payı olduğu bilinməkdədir.

Özünü dini bir hərəkat ya da vətəndaş cəmiyyəti hərəkatı kimi tanıdan FETÖ, əslində bütün bu istiqamətləriylə birlikdə bağlı şəkildə təşkilatlanmış qeyri-qanuni bir quruluşdur. 15 iyulda Türkiyədə hərbi çevriliş reallaşdırmağa çalışan və sonrakı müddətdə Türkiyədəki qruplaşması haradasa yox edilmə səviyyəsinə gətirilən təşkilat bu səbəblə Türkiyə xaricində də zəifləmiş, ancaq yenə də fəaliyyətlərinə hiyləgərcə davam etməkdədir.

**15 İYUL**

Bilindiyi kimi, FETÖ terror təşkilatı Türkiyədə 15 iyul 2016-cı il tarixində bir çevrilişə cəhd etmişdir. ABŞ-ın Pensilvaniya əyalətində yaşayan təşkilat lideri Fətullah Gülən rəhbərliyində Türk Silahlı Qüvvələri (TSK) içindəki FETÖ-yə bağlı əsgər görünüşlü xadimlərin cəhdi ilə reallaşan üsyanda 240 adam həyatını itirmişdir. Bununla birlikdə, çevriliş cəhdinin türk milllətinin və dövlətininin insanlığa nümunə olan müqaviməti və dirənişi ilə müvəffəqiyyətsizliyə uğradılmışdır.

15 iyul 2016-cı il tarixində ordu içərisində təşkilatlanmış olan FETÖ xadimləri döyüş təyyarələri, helikopter və tanklarla küçədə çevrilişə qarşı çıxan vətəndaşların və dövlətin digər əsgər və polislərinin üzərinə bomba və güllələr yağdırmışdır. Ankara və İstanbulda prezident, parlament, təhlükəsizlik və ictimai binaları və çevrilişə qarşı çıxan insanları döyüş təyyarələriylə bombalayan FETÖ, cümhuriyyət başçısı Rəcəb Tayyib Ərdoğana da sui-qəsd təşkil etmişdir. Çevriliş cəhdi ordunun təmiz qolunun, xalqın və dövlətin digər ünsürlərinin dirənməsiylə müvəffəqiyyətsiz olmuşdur. Çevriliş cəhdi əsnasında 173 vətəndaş, 62 polis və 5 əsgər həyatını itirmişdir. Hadisə zamanı həmçinin 1491 nəfər yaralanmışdır.

Söz mövzusu çevriliş cəhdinə fərqli düşüncələrdən cəmiyyətin bütün seqmentləri: siyasi partiyalar, peşə sahibləri, vətəndaş cəmiyyəti quruluşları, media və iş dünyası şiddətlə etiraz etmişlər. Bu çevriliş cəhdində də görüldüyü üzrə azğın bir dini inanca dayanan əsgəri bir diktatorluq qurmaq istəyən FETÖ məqsədinə çatmaq üçün heç bir sərhəd, qanun və qayda tanımamaqdadır.

Xaricdə yaşayan türk vətəndaşların, soydaş və qohumların, demokratiyaya, milli iradəyə, insan haqlarına və azadlığına hörmətli bütün beynəlxalq quruluşların və fərdlərin, türk millətinin şanlı 15 İyul müqavimətinə verdiyi dəstək unudulmayacaq. Türkiyənin yanında, xaricdə yaşayan türk vətəndaşlarının olduğu ölkələrdə, soydaş və qohum birlikləri arasında 15 İyul tarixi hər il Demokratiya və Milli Birlik Günü olaraq xatırlanmaqdadır.

FETÖ-nün iş gördüyü ölkələrdə, Türkiyədə daha əvvəl izlədiyi strategiyanın olduqca bənzərini izləməkdə, hələlik kütlələrə simpatik görünəcək fəaliyyətlər reallaşdırmaqdadır. Bu çərçivədə 15 iyul tarixinin xatırlanması olduqca əhəmiyyətlidir.



**QARDAŞ COĞRAFİYALAR VƏ DÜNYADA FETÖ**

FETÖ istifadə etdiyi üsul və strategiyalar bacarığıyla fəaliyyət göstərdiyi ölkələri içəridən zəiflədərək çölə qarşı müdafiəsiz hala gətirməyi qarşısına məqsəd qoymaqdadır. Bu nöqtədə FETÖ-nün qlobal təhdid potensialı diqqətə alındığında yalnız Türkiyə üçün deyil, fəaliyyət göstərdiyi bütün ölkələr üçün də təhdid meydana gətirdiyi görülməkdədir.

Terror təşkilatı, Türkiyədə dövlətin içinə sızmaq məqsədiylə on illərdir tətbiq etdiyi üsul və strategiyaları fəaliyyət göstərdiyi digər ölkələrdə də eyni şəkildə tətbiq etməkdədir. Fəaliyyət göstərdiyi ölkələrdə kritik mövqelərə və strateji təşkilatlara sızan mənsubları vasitəçiliyi ilə bu ölkələrin dövlət sistemini manipulyasiya edərək təxribatlar törətməkdədir.

Təhsil fəaliyyəti görünüşü altında ölkələrə sızan FETÖ əvvəlcə siyasətçi və iş adamlarından ibarət bir lobbi şəbəkəsi meydana gətirməkdə, ardından da təşkilat mənsublarını bu şəbəkə vasitəsiylə kritik mövqelərə gətirərək strateji təşkilatlara sızdırmaqdadır. Bu üsulla təşkilat, fərqli ölkələrdə çox rahatlıqla işçi yığmaq mövzusunda çətinlik çəkməməkdədir.

FETÖ terror təşkilatı Türkiyə xaricində digər ölkələrdə, xüsusilə türk soylu və müsəlman qardaş birliklərin yaşadığı coğrafiyalarda fəaliyyətlərini bənzər üsullarla davam etdirməkdədir. Dialoq, xoşgörüş kimi qulağa xoş gələn anlayışları şüarlaşdıraraq istifadə edən təşkilat bir QHT-nin heç bir şəkildə əlaqəsinin olmadığı ordu və təhlükəsizlik bürokratiyası, kritik siyasi addımlar, kritik müdafiə etmə və texnologiya sənayesi kimi strateji sahələrdə təşkilatlanmaqdadır. Kiçik yaşlarda təhsil fəaliyyətləri vasitəçiliyi ilə, ya da ailədən təşkilata qatılan üzvlər uzun illərə dayanan təhsil və öyrəndikləri üsullarla özlərini ustaca gizləməkdədir.

Təşkilat, məqsədə gedən hər yolun tətbiqini təməl alan azğın dini anlayışı və gizli gündəliyi səbəbiylə yalnız Türkiyə üçün deyil, fəaliyyət göstərdikləri bütün ölkə və coğrafiyalarda insanlığın gələcəyi üçün bir təhdid meydana gətirməkdədir. Dini dəyərləri öz azğın inancları və mənfəətlərinə görə şərh edən FETÖ terror təşkilatına qarşı bütün dünya ölkələri və xalqları çox diqqətli olmalı və Türkiyənin təcrübələrini rəhbər edərək ortaq bir mübarizə anlayışı inkişaf etdirməlidir.

# MÜƏLLİMLƏR İMTAHANLAR HAQQINDA NƏLƏRİ BİLMƏLİDİRLƏR?



2021-ci ilin müəllimlər imtahanı iyulun 14-ü peşə qabiliyyəti imtahanı ilə başladı və iyulun 27-si xüsusi müəllimlər imtahanı ilə bitəcək.

**Bəs müəllimlər imtahanlar haqqında nəyi bilməlidirlər?**

2021-ci ilin testləri elə də çox dəyişdirilməyib. Əksər fənlərdə imtahanın vaxtı 5 saat əvəzinə 4 saat olub. Bu isə müəyyən tapşırıqların azalmasına səbəb olub.

Qeyd edək ki, xüsusi baş müəllim üçün peşə qabiliyyəti imtahanında maksimum bal 54 baldır. İmtahan verən şəxs maneəni aşmaq və baş müəllim statusu qazanmaq üçün testin maksimum balının 60 %-ni, yəni 33 bal toplamalıdır. İmtahanın vaxtı 4 saatdır. Peşə qabiliyyəti testində 3 növ tapşırıq var: cavab seçimi, uyğunluq və açıq tapşırıqlar.

Qeyd etmək lazımdır ki, "axtaran" müəllim fənn imtahanında maksimum balın 60 %-dən çoxunu toplayarsa vacib həddi aşmış hesab edilir.

Təcrübəçi müəllimlər 1, 4, 7 və 10 kredit toplaya bilərlər. Nəzərə alınmalıdır ki, gürcü dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər) müəllimləri üçün test iki hissədən ibarətdir. Buradan akademik bacarıqlar hissəsində müəllim maksimum balın (akademik bacarıqlar hissəsində maksimum bal - 14) 40 %-dən çoxunu, yəni 6 bal və ya daha artıq toplamalıdır; Təbiətşünaslıq (başlanğıc pillə - I-VI), gürcü dili və ədəbiyyatı (başlanğıc pillə - I-VI) və riyaziyyat (başlanğıc pillə - I-VI) testi iki hissədən ibarətdir. Aplikant akademik hissədə maksimum balın (akademik bacarıqlar hissəsində maksimum bal - 14) 40 %-dən çoxunu, yəni 6 və ya daha artıq bal toplamalıdır.

## SENTYABRDAN MƏKTƏBLƏRDƏ KOMPÜTER TEXNOLOGİYALARI TƏDRİS EDİLƏCƏK



Milli Tədris Planına edilmiş dəyişikliklərə əsasən, 2021-2022-ci tədris ilindən məktəblərdə başlanğıc siniflərdə kompüter texnologiyaları fənni tədris olunacaq.

"II, III və IV siniflərdə kompüter texnologiyaları fənni 2021-2022-ci tədris ilindən həftədə 1 saatlıq qrafiklə məcburi keçiriləcək", - sərəncamda qeyd olunub.

Xatırladaq ki, qeyd olunan fənni məktəblər ötən tədris ilinin ikinci semestrində də seçim fənlərinin sırasına daxil edə bilərdilər.

## MÜƏLLİMİN HANSI HÜQUQLARI VAR?

*Müəllimin hansı hüquqları var? – Bu sual həmişə aktualdır və müəllimlər də öz səlahiyyətlərini yaxşı bilirlər. Ancaq qanun çərçivəsində nəzərdə tutulmuş normalardan başqa, psixoloji faktorlar da mövcuddur ki, bu da nəzərə alınmalıdır. Müəllimin hər addımı – yerinə yetirilməmiş ev tapşırığı üçün yazılmış "2" qiyməti, yaxud pis davranış üçün sinif otağından şagirdi qovması – uşağın psixoloji vəziyyətinə təsir göstərir. Bu dəfə müəllim hüquqları ilə bağlı psixoloqların fikirlərini təqdim edirik:*

**- Müəllimin birinci sinif şagirdinə tapşırıq vermək hüququ varmı?**

- Məktəbə yeni qədəm qoymuş uşaqların uyğunlaşmağa ehtiyacları var. Bu, müəyyən qədər stresdir və ona görə də onları əlavə yükləmək lazım deyil. Şagird birinci sinifdə yazı, oxu, hesablama kimi bacarıqları mənimsəyir. Yaxşı olar ki, oyunlarla tədrisə üstünlük verilsin, çünki uşağın kiçik yaşda 20-30 dəqiqədən artıq bir yerdə oturması yaxşı deyil.

**- Müəllimin şagirdə tətildə ev tapşırığı vermək hüququ varmı?**

- Tədris prosesinə qoşulma periodlarını mütləq istirahət əvəz etməlidir. Belə "yenilənmədən" sonra şagirdlər təhsilə daha maraqla yanaşmaq üçün hazır olurlar. Tətildə tapşırıq vermək müəllimin şəxsi qərarıdır. Ancaq yerinə yetirilməyən tapşırığa görə cəza tətbiq etmək heç də xoşagələn deyil. Yadda saxlayın ki, müəllim uşağa seçim azadlığı verəndə reputasiyasını qoruyub saxlamış olur.

**- Müəllimin şagirddən dərs zamanı telefonunu almaq hüququ varmı?**

- Əgər texnika əlçatandırsa, təbii ki, ondan istifadə etməliyik. Ancaq telefonun şagirdin diqqətini yayındırması mübahisəsiz məsələdir. Əksər hallarda müəllim telefonu uşaqdan almaq məcburiyyətində qalır, ancaq bu, qanunla nəzərdə tutulmayıb.

**- Müəllimin dərsdən sonra şagirdi saxlamaq hüququ varmı?**

- Yadda saxlayın, istirahət şagirdin hüququdur. "Zəng müəllimlər üçün çalınıb, şagirdlər üçün deyil" fikri qəbuledilməzdir. Şagirdlərin istirahət hüququnun tam olması mühümdür. Bu, onların beyinlərinin dincəlməsi və həmyaşıdları ilə ünsiyyət qurmaları üçündür vacibdir.

**- Müəllimin şagirdi sinifdən qovmaq hüququ varmı?**

- Şagirdi sinifdən qovmaq heç bir halda olmaz. Çünki bu, onun reputasiyasına, motivasiyasına pis təsir edəcək. Əlbəttə, nəticədə hər şey təhsilə də təsir göstərəcək.

**- Müəllimin pis davranışa görə uşağa "2" yazmaq hüququ varmı?**

- Belə hərəkət qanunsuzdur, əlbəttə, heç şagirdin də pis davranmaq və dərs prosesində müəllimə mane olmaq hüququ yoxdur. Ancaq burada əsas olan odur ki, müəllim yalnız uşağın biliyini qiymətləndirməlidir.

---

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*

Gürcü dilindən tərcümə etdi:
**Aynurə ƏLİYEVA**

## MƏKTƏB DİREKTORLARI VƏ ONLARIN MÜAVİNLƏRİ SİNİF RƏHBƏRİ OLA BİLƏRMİ?



**Məktəb direktorunun, müavininin və ya rəhbərlik nümayəndəsinin sinif rəhbəri olmaq hüququ varmı? Sinif rəhbəri olmaq rəhbərlik nümayəndəsinin məsuliyyət daşıya bilməyəcəyi öhdəlik tələb edərsə, qanunla buna məhdudiyyət varmı?**

Qanunvericiliyə əsasən, məktəbin müdiriyyət nümayəndəsinin sinif rəhbəri olmaq hüququ var. Milli Tədris Planına əsasən, ictimai məktəblərdə bütün siniflərin sinif rəhbəri olmalıdır. Sinif rəhbəri həmin məktəbin müəllimi olmalıdır. Sinif rəhbərinin həmin sinifdə dərs deməsi məcburi deyil.

Ancaq qeyd edilməlidir ki, müdiriyyət və sinif rəhbərinin funksiyaları eyni zamanda çətin yerinə yetirilir. Müdiriyyət nümayəndəsinin, eləcə də sinif rəhbərinin öhdəlikləri və məsuliyyəti kifayət qədər zəhmət tələb edir. Müdiriyyətə məktəbin inzibati məsələlərdə idarə edilməsi, sinif rəhbərinə isə sinif rəhbəri olduğu sinfin hər bir şagirdinə görə məsuliyyət daşımaq öhdəliyi verilir. Müdiriyyət nümayəndəsi paralel olaraq sinif rəhbəri ola bilərmi? Buna məktəb direktoru qərar verir.

**Sinif rəhbərinin fəaliyyəti sonrakı prinsiplərlə idarə olunur:**

a) Tamhüquqlu tədris – tədris fəaliyyəti şəxsin fiziki, maarifləndirici və iqtisadi-sosial inkişafına doğru istiqamətlənməlidir;

b) Şagirdin bacarıqlarının kəşf edilməsi – sinif rəhbərinin funksiyası şagirdin potensialını kəşf etmək, onun bacarığı və imkanlarının aşkarlanması üçün müvafiq şərait yaratmaqdır;

c) Şagirdlərdə məsuliyyət hissinin inkişaf etdirilməsi – sinif rəhbəri şagirdlərə şərait yaratmalıdır ki, onlar fəallıqların (şənliklər, ekskursiyalar və s.) planlaşdırılmasında və bu zaman yaranan problemlərin həllində iştirak etsinlər.

ç) Əməkdaşlıq prinsipi – sinif rəhbərinin şagirdlərlə münasibəti əməkdaşlığa, hörmət və etimada söykənməlidir.

**Sinif rəhbərinin öhdəlikləri:**

a) Şagirdi, onun valideynini/qanuni nümayəndəsini onların hüquq və öhdəlikləri ilə tanış etmək (məktəbdaxili qaydalar, şagirdin etika məcəlləsi, məktəbin tədris planına uyğun məsələlər və s.);

b) Başlanğıc pillədə, ən azı iki həftədə bir dəfə, baza-orta pillələrdə isə ən azı ayda bir dəfə sinif rəhbəri saatı keçirmək; Sinif rəhbəri, "sinif rəhbəri saatı" çərçivəsində şagirdin yaşına uyğun olaraq müxtəlif fəallıqlar vasitəsilə müxtəlif bacarıqların inkişafı üzərində işləməlidir (məsələn, oxumaq bacarığının inkişafı (başlanğıc pillədə), ətraf mühitin mühafizəsi mədəniyyətinin inkişafı və s.).

c) Şagirdə akademik və ya məktəb mühitində yaranmış müxtəlif problemlərin həllində yardım etmək;

ç) Şagird, valideyn və müəllim arasında əməkdaşlıq münasibətlərinin formalaşmasında vasitəçi olmaq;

d) Davamlı olaraq (minimum ayda bir dəfə) valideynə şagirdin akademik uğuru, nizam-intizamı, şəxsi problemləri, yaxud nailiyyətləri barədə məlumat vermək. Bir şagirdin nizam-intizamı və akademik uğuru barədə başqa şagirdin, valideynin qarşısında danışmaq yolverilməzdir;

e) Lazım olan halda, maraqlanan valideynlə görüşmək və ona şagirdlə, məktəbdə aparılan prosesl ə əlaqədar məlumat vermək;

ə) Təhsil ilinin sonunda, müəllimin verdiyi məlumata əsasən, sinif rəhbəri saatının iştirakçısı olan hər bir şagirdin uğurlarını, dərsdə iştirakını və davranışını analiz etmək. Hər bir şagirdin güclü və zəif tərəfləri barədə qısa xasiyyətnamə hazırlamaq. Həmin xasiyyətnaməni şagirdin inkişafının sonrakı müşahidəsi məqsədilə valideynə versin və özü üçün də saxlasın.

f) Şagirdin başqa məktəbə keçməsi halında onun akademik uğurları və dərsdə iştirakı barədə məlumat hazırlamaq və şagirdin şəxsi işində saxlamaq.

*Tövsiyə olunur ki, ictimai məktəb müəllimləri nazirlik və nazirliyin ictimai hüquqi şəxsləri tərəfindən hazırlanmış və ya tövsiyə edilmiş müvafiq metodik dərsliklər, bələdçilərlə tanış olsunlar.*

# NƏNƏLƏR VƏ BABALAR

Aqibətin xeyir, dəyərli "Yeni Yol" sevər. Yenə problemdən danışmaq məcburiyyətində qalaraq başağrısı verəcəyim üçün öncədən əfvini rica edirəm. Fəqət, bu görülməyəcək, dilləndirilməyəcək dərəcədə sadə bir şey deyil, əfsus ki...

Bu gün mövzu bəhsim cəmiyyət fərdlərinin nə üçün bir su içimi qədər, bir göz qırpımı qədər asanlıqla istənilən yöndə pozulan olmasıdır. Hər kəsin dilində əzbərə dönən bir sıra ifadələr yəqin ki, sənin də dilindən, qulağından yan keçməmişdir: *"Zəmanənin xarabı çıxıb, gənclərin axırı zaydır, nə böyük qanırlar, nə kiçik, internet çıxaranın evi yıxılsın"* və s. Bu sıralamanı istənilən uzunluğa uzada bilərik. Bunlarla mən də razıyam. Bəli, tamamilə razıyam, ancaq bütün günahı yalnız oğurlanan əşyanın üstünə yükləyə bilmərik axı. Bu işin oğruları da olduqca çoxdur. Mən deyim, siz barmaq qatlayın.

Gənclərin, daha doğrusu, elə cəmiyyətin düzgün gəncliyini uşaq ikən, körpə ikən, lap tumurcuq ikən oğurlayıb, öz istədiyi kimi məhv edən nənə, baba "mədəniyyəti" var bizdə. Düz eşitdiniz, onlar məhv etmə toxumu səpirlər. Əvvəldəncə demək istəyirəm ki, sözüm istisnalardan lap kənardır və o istisnalar da təbii ki, özlərini bu yazıda hiss etməyəcəklər.

Məni, səni və bütün gəncliyi, gələcəyimiz dediyimiz gəncliyi narahat edən nənə, baba "mədəniyyəti" gəncliyin kökünə, toxumuna elə GMO-lar qarışdırır ki, onlar soyuducuda saxlasan da iki günə çürüməyə möhtac olan meyvələrə bənzəyirlər. Camaatın *(camaat dedikdə, hər millətdən, hər dildən və dindən ola biləcək, oğul-uşağını, nəvə-nəticəsini öz oyuncağı kimi deyil, insan kimi, öz zəmanəsinə və dövrünə uyğunlaşacaq güclü insan kimi yetişdirənləri nəzərdə tuturam)* nənəsi, babası nəvələrə şeir öyrədərkən, dünya atlasını izlədərkən, ölkənin, dünyanın florası, faunası ilə tanış edərkən, lap əgər əli bunlara çatmırsa adi etika qaydalarını, sənət növlərini, əl işlərini öyrədərkən bizim nənə-babalar uşağa söyüş söymək, anası ilə mübahisə aparmaq öyrədir. *"Qoy fağır olmasın, təpəsinə vurub əppəyini əlindən almasınlar"*, - deyə-deyə elə əppək verirlər ki, ömür boyu çeynənir, udulmur, udulsa da həmz edilmir. Bunu heç kəs inkar edə bilməz. Mütləq ki, hamımız uzaq və yaxın ətrafımızda bu cür nənə, baba görmüşük. Onlar dövlətdə dəvələrinə tay olan körpələrin "xımına" bax beləcə zəhər qatırlar.

Oğul nəvəsinin söyüş edəcəyi günə, qız nəvəsinin həyasızlıq edərək ilk sözlərini deyəcəyi günə nəzir deyən, qurban bağlayan nənə-babalar var. Bir zaman sonra, bax, hər kəsi azara-bezara salan, zəmanənin suçlandığı o zamandan sonra, onlar öz qurbanlarının mıxa bağlı qalmasını diləyirlər. Beləcə bir qurbanla kökü salınan bəd əməllər, min qurbanla geri dönmür ki, dönmür.



İndi sənin də üzündə buruq bir təbəssüm yarandı, dodağın qaçdı bilirəm, dəyərli oxucum. Dediklərimi sən də çox görübsən, görürsən, görəcəksən... Yazıq ki, mən də, sən də gördüklərimizə, duyduqlarımıza ya susuruq, ya da gərəkdiyi kimi dillənə bilmirik. Biz pozduğumuz fərdlərin günahlarından ümuma da böyük bir pay biçirik – məktəbi günahlandırırıq, müəllimi, dövləti, interneti, telefonu, Markı, Bill Qeytsi, qonşunu, uşağın sinif yoldaşını, türk seriallarını, oxumaq həvəsiylə oyan-buyana tüyünənləri, Avropanı, enerji içkilərini, bir sözlə, hərəkət edən və etməyən hər şeyi, özümüzdən və ailəmizdən başqa hər şeyi övladlarımızın pozulan nitqindən, yarımçıq taleyindən, dağınıq psixologiyasından məsul tuturuq. Əslində, sadaladıqlarımın hər biri bizim zəifliyimizin, əskikliyimizin yanında, boş prinsiplərimizin yanında çox məsumdur.

Ən pisi də odur ki, peşman olub səhfimizi anladığımız zaman – o da əgər anlasaq haa, səhflərimizi özümüzlə məzara aparmasaq – çox gec olur. Gözümüzdəki pərdəni aralayıb baxanda pozduğumuz canların artıq yeni canları pozmağa başladığını, məhv edən toxumun qollu-budaqlı ağaca çevrildiyini görə bilirik.

***Afayət AFİQ***

# GÖZƏ KÜL ÜFÜRMƏK



***Adət – gələcək nəslə atəş verməkdir, kül uzatmaq yox.***

*(Roma atalar sözü)*

Bizim millətin əxlaq-namus anlayışı var, saxlanılıb, di gəl ki, yaxınlaşıb baxanda görürsən ki, çox eybəcər bir görünüşdədir. Bu görünüşə ürəyi yanan eşələyib, düzəltmək istəyib, xalqa səslənmək istəyir ki, *"dayanın, aya, dayanın, bu bizim tərifləyəcəyimiz o mentalitet deyil, tərifləməyin"*. Danışmaqdan bezən, yaxud ikiqat ağıllı olan isə qırağa çəkilib öz həyatınıca gözəl bir şəkildə yaşayır.

Olduğum toyda gəlinin qardaşı belinə qırmızı lenti bağlayanda, ondan soruşdular ki, bacına nə diləyirsən? Qardaş cavab verdi: *"Gələn il qucağında uşaq tutmağını"*. Hamı əl çalıb güldü. Öz-özümə düşündüm, görəsən nəyə gülürlər? Demir ki, bacıma xanım-xatın olmağı, sevib-sevilməyi, ərinin könül sultanı olmağını diləyirəm. Deyir, uşaq doğsun, əsas odur ki, bacısı gedib öz "arvad" funksiyasını yerinə yetirsin, qalanı elə də önəmli deyil.

Sözü nəyə gətirirəm, mənim yaxın qohumum həkimdir, danışır ki, klinikaya gələn cavan gəlinlər telefonla danışırlar və bəzən hiss edirsən ki, danışdığı nə qardaşı, nə atası, nə də əridir. Kim olmaq ehtimalını siz özünüz başa düşdünüz. Və bu qohumum – kişi o qızları qınayır. Haqlıdır, bu, təriflənəsi bir şey deyil. Mən bu yazımla onları dəstəkləmirəm. Amma və lakin...

Düşünürəm ki, o gəlinlərə pozğun demək yox, oturub hallarına ağlanasıdır. Qızı dünyadan xəbəri olmayanda – 14-15 yaşında ikən ona yatmağa kişi axtaran (tapan) atamı pozğundur, qızını fəxrlə qızıllara bürüyən anamı, yoxsa 5-6 ildən sonra ərindən iyrənməyə başlayan qızdırmı pozğun? Mövzu ilə bağlı dostlarımdan biri fikir bildirdi ki, *"bəs sən onu vaxtında ərə verməsən, oxutsan, axı özü başlayacaq oğlanlarla danışmağa, bəs birdən adına ləkə gəldi?"* Yəni onda belə çıxır ki, qızın özü özünə oğlan tapıb "xarab" olmaqdansa, valideyn qızına uşaqkən evlənməyə kişi tapmalıdır? Niyə bu əsil pozğunluğu evlilik sözü altında bəzəyirsiniz?

Mənim uzaq bir qohumum var, oğlunu 30 yaşına yaxın 16 yaşlı qızla evləndirdi. Oğlan ağıldan kəmdi, buna əlavə qabaq dişləri də yoxdur. Oğlana baxanda Sabirin məşhur şeiri yada düşür:

*Vay, vay! Deyəsən bəşər deyil bu!*
*Bir şəklə uyan təhər deyil bu!*
*Allahı sevirsən, ər deyil bu!*
*Ərdodu, qabandı, qoyma, gəldi!*
*Didarı yamandı, qoyma, gəldi!*

Bir ay sonra o qızı bir qadınla yolu keçərkən gördüm. Hamı qıza baxırdı – hündür, ağ dərili, şabalıdı gözlü, cəhrayı dodaqlı, ağ muncuq kimi düzülmüş dişləri... Və o qız bayıra həmişə mütləq kiminsə müşayiətiylə cıxacaq, çünki onun əri instinktiv olaraq bilir ki, bu qız ayılsa onu bəyənməyib qaçacaq. Ona görə də qız gözünü hər qaldırmaq istədiyində şapalaq yeyəcək, çünki əri bilir ki, o qıza ayılmağa imkan verilməməlidir. Çünki əri hər oğlandan xəflənəcək, elə biləcək ki, bunun arvadını əlindən almaq istəyirlər.

Vay o qızın halına ki, 4-7 ildən sonra ayılıb kimin yanında olduğunu başa düşəcək. Ayılmağımı daha böyük faciə olacaq, yoxsa ayılmamağımı? Bilmirəm... Başqalarının arvadlarına baxacaq, onların ərlərinə, özünə, sonra isə kiminlə yaşadığına. Eləcə bu sualaca qapanacaq: ***"Niyə?"***.

Sabah onun gözləri başqa kişilərdə olanda söyərsiniz o qızı, sonra isə o qızı başından edən, ləyaqətsiz, sizin təbirinizcə desək "çesti" olmayan atasını da söyərsiniz, çünki o, qızını vəhşi birinə ərə verəndə ömürlük söyüləsi oldu. Və o qız "xarab" olsa bilin ki, onu pozğun edən atası oldu!

İndi içinizdən biri durub deyəcək ki, *"bu boyda xalq, çoxluq, biz böyüklər – hamımız səhv, sizsinizmi düz düşünən?"* Axı siz niyə yaşınızaca arxalanıb özünüzü haqlı sayırsınız? Afrikanın ucqar adasında, bir tayfanın belə bir adəti var – toy gecəsi gəlin gərək əvvəl qayınata və qayını ilə ola, sonra isə öz əri ilə. Orada çoxluq elə edir deyə, bu, onların düz olması mənasınamı gəlir?

Bir cəmiyyətdə ki, ərə verib (gedib), arvad almaqdan başqa bir maraq olmasın... 7 yaşında uşağı görəndə *"Qızını sənə verimmi? Oğuluma alımmı səni?"* deyə hırıldayaraq soruşursunuz, çünki başqa soruşacaq, danışa biləcək sözünüz, mövzunuz yoxdur.

***Eva (Şənhəyat) SADİQ***

İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Tibb fakültəsinin tələbəsi

# İOSİF QRİŞAŞVİLİNİN “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” ƏSƏRİNDƏN BİR PARÇA

## VƏTƏNDAŞLIQ MOTİVLƏRİ

*(əvvəli ötən sayda)*

Əvəzində ikinci tərəfdən, lazım olan yerdə adəti pisləyirdilər: Ölü barədə pis deyilmir adətini və vəfat etmiş sələmçi mikitanları həqiqi siması ilə xarakterizə edirdilər. Bax, ikinci fəhlə şair Mixail Qordadze belə bir mikitana necə epitafiya həsr edir:

***“Mikitanın daxıldarı vərəmdən öldü urvatsız,***
***“Yaxşı gənc idi”, iki şaaya dəymirdi;***
***Dərisi soyuldu ticarətdə, dostları ilə, xətri ilə, qardaşcasına,***
***Zəngin ehsanla dəfn etdilər yaxşıca, qaydasında bizimsayağı.***

***İyirmi tümənlik məzarda uyuyur, başqasını nəsə düşünürmü?***
***Otuz da heykələ verdilər, üstünə də ağ daş döşədilər,***
***Üstündə şəkli ilə, gümüş kəməri ilə, baxın saatın zəncirinə də,***
***İctimai qəbiristanlığı rəva görmədilər, görəsən, kimə.”*** *(Bax: “Şeirlər”, 1893-cü il, səh. 21).*

Həyatın dəyişkənliyi və zehni qidanın artıq tələbi oxucuların kadrını da dəyişdi.

Əgər köhnə vaxtlar bazar poeziyasının oxucusu o qədər inkişaf etməmişdir ki, çap olunan kitabı tənqidi eynəklə silahlanmış halda qarşılaya idi. Əvəzində son vaxtlar Tiflis vətəndaşları kitabın pis-yaxşı olmasını ayırd edirdilər və elə özləri yenicə çıxmış bu və ya digər kitabı izləyirdilər. Məsələn, Riqoleto (İ.Evdoşvilinin təxəllüsü idi) Petre Coxianın kitabına baməzəlik edib: “Petre Coxia – özünə ağac vurdu *(Gürcü dilində soyadı ilə ağac sözü oxşar olduğundan, cinas olduğundan maraqlı alınıb - M.M.).* Müasir aşağı təbəqə oxucusunun belə xarakterizə etməsi xoşuna gəlmədi, çünki sözügedən kitabda yerləşdirilmiş bəzi poema (“Baadurun sərgüzəşti” və sair) hamı üçün xoş oxunaqlı idi. Bəzən isə elə kitab da nəşr olunurdu ki, onu da anlamaqda elə oxucu çətinliklər çəkirdi. Güman ki, ona görə ki, Luka Tateişvilinin (1860-1916) Şotasayağı şeir ilə yazılmış qalın cildli poemasını (“Məhəbbət”) camaat “Çoşqa dərisi geymiş pəhləvan” adlandırırdı. Bir sözlə, ciddi kitablar oxunurdu və tədricən bu cür ucuz dəyərli epiqonların miskin mahnıları sıxışdırılırdı:

***1. “Ay arvad, başına çarə qıl, tezliklə,***
***Səni sevəni duyublar,***
***Elə sabah onu tutmaq istəyirlər***
***Və onu döyməyi də qarşılarına məqsəd qoyublar.***

***Ol dura, dura, dura,***
***Məhəbbət cuşə gəldi!”***

***2. “Kutsuni, Kutsuni, Kutsuni,***
***Sevirəm, sənin arxanca düşməyi”.***

***3. “Mənim gözəlim, alış, yan,***
***Alış, yan və məni də yandır”*** və sair.

Bu cür aşiqanə şeirlər ədəbi etiraza da səbəb oldu. Bax, xalq şairi Zamukov nə deyir:

***“Bəzi şair***
***Pozğun əxlaqlıdır;***
***Onun ardıcılları da,***
***Deyərəm, ağıldan kəmdir.***

***Qadınları göyə qaldırırlar,***
***Onların gözlərini tərifləyirlər,***
***Min cür yolla pozurlar***
***Qız-oğlanın gələcəyini.***

***Şeirlər yazırlar bu cinslərdən,***
***Əxlaqı pozulmuşlardan və bu üfunətlilərdən,***
***Və onların beyni elə bilir ki,***
***Xeyirxah işi bərqərar edir.***

***Qardaşcasına sizə yalvarıram,***
***Onu güzəştə gedin tamamilə,***
***Elə şey yazın ki,***
***Dinə də əl versin.***



***Onu bil ki, qardaşcığaz,***
***İndi o, andır;***
***Aşiqanə kitablar***
***Yaramaz və zəhərdir.”*** *(Bax: “Həyatın səsi”, səh. 33).*

Bu “an” artıq yetişdi. Fəhlə şairlərin əməyi camaat arasında boşuna getmədi. “Sevgi kitablarının” əvəzinə Ant. Purtseladzenin “Üç nəfərin sərgüzəşti”, S.Ququnavanın “Tamariani”si oxunurdu. Qiqo Xeçuaşvili tərəfindən bacarıqla nəzmə çəkilmiş “Didmouraviani”, elə onun “Dülgərlər öyünün toyu”, “Solomon Mecğanuaşvili”, İv. Macavariani tərəfindən gözəl tərcümə olunmuş “Kəndli kişinin tarixi”, “Dörd qardaş” *(Bu “Dörd qardaş” gənclik nağılını rus dilindən çoxları tərcümə edib. Sop. Mqaloblişvili və Vaso Dekanozişvili (Bax: “Teatr və həyat”, 1924-cü il, № 4), Bartlome Moseşvili (Z.Cicinadzenin şəxsi məlumatına görə) və Qola Çitadze; Q.Çitadze bu əsəri (və eləcə də “Klod Ge”) “Zənci” təxəllüsü ilə tərcümə edib. Sonra Zənci təxəllüsü ilə Qr. Rtcxiladze yazırdı),* “Knyazın qadını” (N.Avalişvilinin tərcüməsi); “Lazarilio” (P.Umikaşvilinin tərcüməsi); “Ölümə məhkumun son günü” (T.Saxokianın tərcüməsi); “Surami qalası”, Mix. Cacvadzenin poemaları, İzidzenin poemaları və Mağaldadze tərəfindən nəzmə çəkilmiş “Müqəddəslərin həyatı” *(Müqəddslərin həyatının həris vurğunu idi kimsə Nikoloz Dimitriyeviç Mağaldadze ki, bu da “İrəliləyişin xəzinəsi”, “Pozğunluq və sərxoluqdan olan ehtiraslar”, “Müqəddəs Yekaterinanın həyatı və ehtirasları”, “Çar Konstantine və müqəddəs Yelenanın həyatı” kitablarının müəllifi idi. Mağaldadzenin kitablarından başqa camaat arasında nəzmə çəkilmiş müqəddəslər də oxunurdu: “Müqəddəs apostol Ninanın təsviri” – İr. Eliozaşvilinindir; “Çariça Ketevanın əzabı” – Dimitri Baqratovanındır; “Ebani” – Aleksi Beridzenindir; “Məryəm ananın uymasının svinaksarı” – R.Sacaoxelinindir; “Mikael Qobronisinin əzabı” – Mesxi İv. Qvaramadzenindir; “Müqəddəs David və Konstantinenin əzabı və bakirə Corxadzelərin əhvalatı” – Luka Qubelinindir (Tateişvilinindir); “Şuşaniki” – İ.Nersesovun və V.Sulxanovun və başqalarınındır).*

Çoxlarına qəribə gələ bilər, odövrkü fəhlələr nəzmə çəkilmiş müqəddəslərə də meyl edirdilər. Lakin demək lazımdır ki, bu cür tanrıya inam, istərsə də möhvumat fəhlələrin böyük hissəsi arasında hələ yenə də dərin köklər salmışdır. Məsələn: Elə hal olmuşdur ki, tətil edən zavodun fəhlələri kilsəyə gediblər, “libaslı keşiş” qarşısında təqdim olunublar və and içiblər ki, ümumi işə xəyanət etməyəcəklər” *(Bax: “İnqilabın salnaməsi”, 1926-cı il, № 1 (14), səh. 122, İlk tətil, Al. Baciaşvilinin tütün karxanasında).*

Sənətkar şairlərin özləri də yüksək ranqlı yazıçıları təqlid edirdilər və yazıb-yaratmağı tanrıdan umurdular və sənətkarlar beləcə tanrıya fəryad edirdilər:

***“Gücünlə məni qadir et, burada***
***Əşyanın mənzərəsini çəkə bilim,***
***Yalvarıram, uca tanrı,***
***Sözünü eşit bir adi sənətkarın”.***
*(Petre Coxia).*

Fəhlə yazıçı Ş.Navtluğeli öz xatirəsində yazır: ***“Müqəddəslərin həyatı məni özünə cəlb etdi. Oxuyurdum və moizə edirdim, amma yoldaşlarımın təhriki ilə fikirlərimi və yönümü dəyişdim və tezliklə siyasətə keçdim”*** *(Bax: “Kommunisti”, 1927-ci il, № 99 ( 5 may)).*

Bu “siyasətə keçməyən” şair, eləcə də özünü dərk edən xalq şairləri arasında da kifayət qədər bu inam və dini simalara pərəstiş yayılmışdır. Məsələn:

***“Məgər dağıdılmış məbəd görübsünüzmü,***
***Hardadır ibadət, dua daha eşidilmir, nə də zəng çalır,***
***Hardadır təriflər tərifi, ruha qida vermir, qəlbi sevindirmir,***
***Hardadır mələklərin bir hissəsi, pis ruhlar veyillənir, qəh-qəhə çəkir”...***
*(İ.Evdoşvili).*

***“Kişisən, kişi kimi doğulmuş,***
***Kişini sevməlisən.***
***Kilsəyə get***
***Hər istirahət günündə,***
***“Davidni” və İncil***
***Hər ikisi orada uyuyur.***
*(İ.Davitaşvili).*

Buna görə də, demək olar ki, yüksək təbəqələrdən sürətlə atılan sözlər qəribə dissonans olaraq hesab edilməlidir:

***“... Onda, dostlar, hazıram soruşum,***
***Bir deyin,***
***Məgər doğrudanmı inanırsınız ki, olmalıdır***
***Və əgər doğrudanmı inanırsınız***
***Və olsun tanrı?”***
*(Vaxt. Orbeliani).*

***

Etiqat motivləri fəhlə şairlərin şeirlərində cəfalı həyat kimi və ümumiyyətlə, hörmətdən düşmüş həyatın əksi kimi hesab olunmalıdır. İstiqlaliyyət hərəkatının şəfəqlərində görünən şairlər hələ yenə dövrün təsiri altında idilər və indiki dövr üçün xarakterik hesab olunmalı olan ideoloji mətinliyə çata bilmirdilər. Lakin ümumi hörmətdən düşmüş və qara-zülmət həyat şəraitində bu fəhlə şairlərin fəaliyyəti qaraya bürünmüş ideoloji qövsün pozulmasında bir növ cəhd idi. Bu xeyirxah cəhdin qarşısında müasir insan canfəşanlıq göstərməli və bəzən də bu şairlərin də etdiyi səhvlərinin üzündən onların xidməti unudulmamalıdır.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

*AFİQ MUXTAROĞLUNUN AYAQÜSTÜ DÜŞÜNCƏLƏRİ*

# CƏNGAVƏRLİKDƏN BAYKERLİYƏ

Yazım baykerlər barədədir.

İngiliscədən dilimizə keçən bu söz motosikletçi anlamı verir. Baykerlik bir hərəkat kimi ötən yüzilliyin 50-ci illərində ABŞ-da meydana çıxmış və dünyaya yayılmışdır.

Baykerlik motosikletə qədərindən artıq vurğunluqdur, baykerlik sürət, adrenalin maniyasıdır. Yalnız bu tələblərə cavab verən motosiklet sürücüləri bayker hesab olunur, yəni hər motosikleti olana bayker deyilmir.

Baykerlik təriqət kimi bir şeydir. İyrimi birinci yüzilliyin hadisəsi, texnologiyanın gerçəyi də demək olar.

Mən burada bir yağlı abzas vermək istəyimin qarşısını ala bilmirəm.

Bir orta əsrlər cəngavərini gözümüz qarşısında canlandıraq. Əvvəl başdan bu cəngavərmizin bir atı olmalı deyilmi? At məsələsi düzələndən sonra biz ona cəngavər görkəmi vermək üçün əynini-başını qaydaya salmalıyıq. Ona zirehli paltar geyindirməli, qoluna qolçaq, dizinə dizlik taxmalı, başına dəbilqə, üzünə niqab yaraşdırmalıyıq. Onun əlinə uzun bir nizə verməmiz, belinə bir qılınc bağlamamız gərəkcəcək. Hələ onun rəqibdən qorunması üçün bir qalxanı da olmalıdır. Cəngavərin xırda-para digər yaraq-əsləhəsi də olurdu ki, bunun da üzərindən sükutla keçək. Qısa kəssəm, onu altdan geyindirib, üstdən qıfıllandırmamız lazımdır. Cəngavərimizin atı da zirehə tutulmalı, yəhəri-yüyəni də yerli-yerində olmalıdır. Cəngavərin silahını daşıyan, ata minib-düşməsinə yardım edən, yəni üzəngisini basan, atının başını tutan, ağır döyüşlərdən sonra yaralarını bağlayan, qayğısına qalan, biş-düşünü edən bir yardımçısı da oldumu, demək hər işimiz yolundadır. Sanço Pansa kimi sadiq köməkçini tapmaqsa hər zaman mümkün olmaya bilər.

Cəngavərlərin ordenlərinin – təşkilatlarının olmasını da yadınıza salıram. Hamısı Don Kixotluq edib, yağıya qarşı tək ha vuruşası deyildi. Onların da ağıllısı, dəlisi olmalıydı və gerçəklikdə, bu, belə də olurdu. Tampliyerlər ordeni, Tevton ordeni, Malta ordeni kimi dini-cəngavər ordenlərinin xaç müharibələrinin iştirakçısı olduğunu çoxumuz eşitmişik. Düzdür, mənim söhbət açmaq istədiyim baykerlərin dini müharibələrdə iştirak etmələri və ya edəcəkləri barədə xəbərfilan da yayılmayıb. İşin əsli bu. Özümüzü Allahdan edib, yalanmı deyəsiyik?

İndi bizim XXI yüzilliyə qayıtma zamanımızın yetişdiyini düşünürəm. Yetər orta çağların qaranlığında var-gəl etməmiz.

Motosikletin əsasən ikitəkərli nəqliyyat vasitəsi olmasını hamımız bilirik. O zamanlar, yarım əsr əvvəli deyirəm, kənd uşaqları motosikletlə rastlaşmaya bilərdilər. Amma davalı filmlər kimi tanıdığımız filmlərin ağ-qara təsvirlərindən almanların bu nəqliyyatdan geninə-boluna istifadə etdiklərini görməmiş də deyildik. Faşistlərə nifrət etsək də, gizlindən-gizlindən oğlan uşaqlarının, elə bəlkə qız uşaqlarının da içində bir motosiklet sevgisi boy verirdi. Niyə də verməməli idi ki? Sevdiyi qızın hind filmlərindəki kimi, qollarını kəmər edib, arxadan belini qucaqlamasını, küləyin saçlarını bir-birinə qarışdırmasını hansı gənc oğlan istəməzdi? Bu ləzzəti daha da şiddətləndirmək üçün ikitəkərli köhlənə bir az da qaz verməyin nəyi pisdir ki? Rac Kapurun çəkdiyi və baş rolda oğlu Rişi Kapurun oynadığı "Bobbi" filminə baxandan sonra bu istəyin daha qarşısıalınmaz olduğunu deməkdən keçmək günah olardı.

Bunu da yazımızın xatirə guşəsi sayaq varsın, getsin.

Bu qədər uzun gəzişmədən sonra yazının əsas yerinə gəldik. Burada, ay bərəkallah, nə faraş gəldik deyənlərin sözlərini qəribliyə salmadığımı da söyləyim ki, sular durulsun. Zəhlətökənlik sayılmasın deyə, elə mövzunun özü barədə də qısa danışacam, ümidvaram ki, başladığımla bitirdiyim bir olacaq. Sağ olmuş, başla da, sözünün Alməmmədini de, nəyi gözləyirsən, qırıldıq axı?

Avropada sürücülər yol hərəkəti qaydalarına ciddi şəkildə əməl edirlər. Amma xüsusi bir kasta – baykerlər əlinə keçən ilk fürsətdə bu qaydaları az qala bilərəkdən pozur. Düzdür, motosikleti olanların böyük əksəriyyəti baykerlərin sırasına düşmürlər və heç düşməyi də ağıllarından keçirmir, öz adi iş-gücləriylə məşğuldurlar. Həm də baykerliyin özünün xüsusi tələbləri var, bu qaydalara əməl etmək hər bir baykerin şərəf işi sayılır.

Bəri başdan deyim ki, baykerlərə cəmiyyətin münasibəti birmənalı deyil. Onları öz kumirləri sayanlar da var, adları gələndə üzgözünü turşudanlar da.

Yuxarıda orta əsr cəngavərlərinin geyim-gecimindən, atından, silahından bəhs etdiyimi bir daha yadınıza salıram. O üzdən ki, baykerlər də başqalarından geyimləri, saç-saqqalları ilə, ən əsası da motosikletləri ilə fərqlənirlər. Saçları uzun, arxadan at quyruğu şəklində bağlanmış bu adamlar özlərinin xüsusi kasta olduğunu, sivillər adlandırdıqları və bəyənmədikləri insanların onlardan olmadığını, onların yüksək kastalarından kənarda qaldıqlarını düşünür, hətta baykerlikdə təmsil olunmayanları aşağılamaqdan zövq alırlar.

Baykerlər klublarda birləşir, günün və ya həftənin müəyyən vaxtlarında bir yerə toplaşır, bayker dünyasında baş verən yeniliklərlə bir-birini tanış edir, öz metal atlarını nümayiş etdirirlər. Metal at demiş, peşəkar bayker hansı markadan olmasına baxmayaraq, mütləq yiyəlik etdiyi miniyinə əl gəzdirməli, ona özünün müəyyən əlavələrini etməlidir. Yoxsa onun nəyi bayker oldu ki? Adətən bu əlavə nikeldən olub, xüsusi məna daşımalı, fərqlilik nişanına çevrilməli, sahibinin seçkin biri olduğunu göstərə bilməlidir.

Baykeri başının dəbilqəsindən, yaxasının zəncirbəndi köndələninə bağlanan dəri gödəkçəsindən, ora-burasını bəzəyən tatusundan, dəli sözü, altının motosikletindən fərqləndirmək asandır. Baykerlərin sosial tərkibi də yekcins deyil. Varı-halı başından aşanlardan tutmuş bütün sərvəti əynindəki paltardan və bir motosikletdən ibarət – bir həsir, bir Məmmədnəsir olanlara qədər.



Baykerlərin adı bir çox əlləm-qallam, deyək ki, narkotik kimi, qarət, soyğunçuluq kimi işlərdə də hallandırılır. Amma özünü əsil bayker sayanlar bütün bunların onlara atılan böhtandan savayı bir şey olmadığını dilə gətirərək, yaşadıqları ölkənin qanunlarına əməl etdiklərini bildirirlər.

Baykerlərin keçdikləri həyat yolları, onların dünyagörüşləri bir çox filmin mövzusu olmuş, bu gün də olmaqdadır. İnternetdə kiçik bir axtarış aparmaqla bu filmləri tapmaq su içimi qədər asandır.

S. A.

Bu yazının havasına keçən il bir aydan çox yaşadığım Tessendrelo kəndində köklənmişdim. Adı italyan adlarına bənzəyən bu kənd Belçikadadır. Mən Tessendreloda yaşayarkən, baykerlərin toplaşdığı restoranlarda onları xeyli müşahidə edə bilmişdim və bu yazı da oradan qafamda ilişib qalmış və Avropa gerçəklərindən biri olduğu üçün yazmaq istəyimin qarşısını heç cür kəsə bilmədim.

**Afiq MUXTAROĞLU**
*Niderland Krallığı*

# TEXNOLOJİ DƏYİŞİKLİKLƏRİN TİCARƏTƏ TƏSİRİ



Xalqlararası əlaqə formalarından danışdıqda, yəqin ki, beynimizə gələn ilk fikirlərdən biri ticarət və ticari əlaqələr olacaqdır. Bəli, tarix boyu mədəniyyətlər, xalqlar və dövlətlər arasında ən sıx-sıx işlədilən əlaqə formalarından biri ticarət olmuşdur.

Ticarət əsrlər ərzində insanların, millətlərin, xalqların, coğrafi götürdükdə ölkə və şəhərlərin bir-biri ilə, eləcə də digər yaşayış məskənlərinin qarşılıqlı bağlantı-əlaqə vasitəsi olmuşdur. Ticarət əlaqələri zamanla müəyyən amillərin təsiri ilə sərt dəyişikliklərə uğramış və ya dövrün tələblərinə müvafiq olaraq ciddi islahatlara və dəyişikliklərə məruz qalmışdır. Ticarətdə dəyişmə vasitəsi olan qızıl və kağız pulların yaranması, insanların getdikcə artan gündəlik tələbatları, texnologiyanın daima təkminləşdirilməsi kimi amillər əhəmiyyətli dərəcədə ticarətin formasını yeniləməsinə baxmayaraq onun mahiyyətini sabit saxlamışdır. Bu amillərdən ən önəmlilərindən biri isə texnologiya və onun inkişafı olmuşdur. Çünki hər dəfə meydana çıxan yeni texnologiya özündən əvvəlkilərə nisbətən daha səmərəli və asan idi. Məhz bu səbəbdən insanlar günümüzdə də olduğu kimi əvvəl işlətdikləri vasitələrə birdəfəlik əlvida deyirdilər. Misal üçün, yazı üçün qədim dövrlərdə papirus və heyvan dərisi işlənilirdisə, orta əsrlərdə kağızın ixtirası buna son qoydu. Orta əsrlərdən XXI əsrə kimi yazı üçün istifadə olunan kağız da yavaş-yavaş öz yerini elektron vasitələrə verməyə başlayır və bir gün demək olar ki, kağıza ehtiyac qalmayacaq.

Yeni meydana çıxan texnologiyaların özündən əvvəl istifadə olunan vasitənin dəyərsizləşməsinə, daha az tələb olunmasına gətirib çıxarması, sözsüz ki, insanlar arasındakı iqtisadi münasibətlərə də öz təsirini göstərib və göstərir. Ticarət hər zaman texnologiyanın dəyişməsindən ən çox təsirlənən sahələrdən biri olmuşdur. Misal olaraq, ötən əsrin əvvəlində hər hansı bir məhsul istehsal etmək və fabriklərin-zavodların işlədilməsi sadəcə və sadəcə dövlətlərin bacara biləcəyi proses idisə, əsrin sonlarına yaxın mexaniki əməyin arxa plana keçməsi, azad sahibkarlıq, robot və digər texnoloji qurğuların təkminləşdirilməsi az vaxt ərzində istehsal prosesinin, eləcə də ticarətin sürətlənməsinə və geniş miqyas almasına gəlirib çıxardı. Beynəlxalq səviyyədə tanınmış bir çox özəl ticarət mərkəzlərinin, şirkətlərin, istehsalat müəssisələrinin artıq özlərinin yeni ticarət müqavilələri qurmaları, öz texnologiyalarını inkişaf etdirmələri ticarət əlaqələrini yeni bir mərhələyə çatdırmışdır (Hazırda onu deyə bilərik ki, bəzi nəhəng özəl şirkətlər nüfuz və istehsal gücü ilə onlarla ölkənin birlikdə malik ola biləcəyi potensialı qat-qat üstələyirdi).

Hazırda mövcud texnologiya ilə istehsal gücünün pik səviyyəyə çatdığı bir dövrdə yaşayırıq. Və bu proses özözlüyündə daha yeni texnologiyaya tələbat formalaşdırır. Ekspertlərin fikrincə, 2050-ci ilə qədər dünyada ticarət əməliyyatlarının 90 %-i qeyri-nağd və ya elektron ödəniş sisteminə keçmiş olacaq. Bu isə, artıq kağız pulların dövrünün sonu olacağı, ticarətdə daha yeni dövrün başlanacağı deməkdir.

**Səlahəddin PİRİYEV**

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 15 İYUL 2021-Cİ İL №013 (136)

## 12 İYUL TARİXİNDƏN PEŞƏ PROQRAMLARINA QEYDİYYAT BAŞLAYIB




12 iyul tarixindən peşə təhsili proqramlarına qeydiyyat başlayıb və 20 avqust tarixinə qədər davam edəcək. **"vet.emis.ge"** veb-səhifəsində, eləcə də Gürcüstan miqyasında fəaliyyət göstərən təhsil-resurs mərkəzlərdə, peşə təhsili proqramları həyata keçirən müəssisələrdə qeydiyyatdan keçmək mümkündür.

2021-ci ilin qəbulu üçün bütün Gürcüstan miqyasında dövlət və özəl peşə müəssisələri yüzdən artıq peşə sahəsinə tələbə qəbul edəcək.

Qeyd edək ki, peşə proqramlarına qəbul üçün yeni qayda hazırlanıb. Qaydaya əsasən, bu il ilk dəfə vahid qəbul çərçivəsində yalnız ictimai deyil, həm də bütün özəl müəssisələrə qəbul mümkün olacaq.

Belə ki, bütün avtorizasiyadan keçmiş, həmçinin özəl müəssisələr tələbələri yalnız vahid qəbul çərçivəsində, ümumi platforma vasitəsilə qəbul edəcək.

Yeni yanaşma peşə təhsilinin əlçatanlığını artıracaq və bütün maraqlanan şəxslərin peşə təhsilinə qoşulmasını təmin edəcək. Eləcə də peşə təhsili proqramlarında təhsilini davam etdirmək istəyənlərin fərdi ehtiyaclarını nəzərə alacaq.

2021-ci ildə inteqrəedilmiş proqramların sayı da çoxalıb. Bu, baza təhsili olan şəxslərə peşə təhsili ilə birlikdə ümumi təhsil almaq imkanı da verəcək.

Aplikantların qəbul prosesində rəngarəng mexanizmlərdən istifadə olunacaq. Bu, proqramların özəlliklərini nəzərə almaqla tələbələrin seçilməsi-qiymətləndirilməsi istiqamətində kifayət qədər sürətli yanaşmanı nəzərdə tutur.

Xatırladaq ki, 2021-ci ildə yalnız ali peşə proqramlarına qəbul olmaq istəyənlər Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzi tərəfindən təşkil edilmiş peşə imtahanından keçməli olacaqlar. Digər proqramlara qəbulla bağlı isə peşə təhsil müəssisələri, tərəfdaş təşkilatlarla, həmçinin işlə təmin edənlərlə birlikdə özləri tələbələrin seçim prosesinin təşkil edilməsini təmin edəcəklər.

2021-ci ildə təklif edilmiş peşə təhsili müəssisələri və proqramlarının tam siyahısı **"vet.emis.ge"** və **"vet.ge"** səhifələrində əlçatandır. Gürcüstan Təhsil və Elm Naziliyinin qaynar xəttindən əlavə məlumat almaq mümkündür: (995 32) 2 200 220.

## YAY OLİMPİYA OYUNLARINDA GÜRCÜSTANI TƏMSİL EDƏNLƏR ARASINDA AZƏRBAYCANLI DA VAR




Gürcüstanı XXXII Yay Olimpiya Oyunlarında təmsil edəcək idmançıların tam siyahısı açıqlanıb. Gürcüstan "Tokio – 2020"də 11 idman növü üzrə 35 idmançı ilə iştirak edəcək.

Siyahıda 22 yaşlı boksçu **Sahil Allahverdiyev** də yer alıb. O, 52 kiloqram çəki dərəcəsində mübarizə aparacaq.

İyulun 10-u Tbilisidə olimpiya və paralimpiya oyunlarında iştirak edəcək heyətin yolasalma mərasimi keçirilib. Tədbirdə çıxış edən Gürcüstanın baş naziri İrakli Qaribaşvili bildirib ki, hökumətin qərarı ilə qızıl medal qazanacaq idmançılara 1 milyon lari mükafat veriləcək. İdmançılara qələbə və uğurlar arzulayan hökumət başçısı olimpiadada Gürcüstan himninin dəfələrlə səsləndiriləcəyinə əminlik ifadə edib.

Gürcüstanın Milli Olimpiya Komitəsinin prezidenti Leri Xabelov komandada çoxlu təcrübəli və titullu idmançıların olduğunu deyib. Onun sözlərinə görə, komandanın əvvəlki olimpiadanın nəticələrini yaxşılaşdırması üçün bütün resurs və imkanları var.

Mərasimə prezident Salome Zurabişvili, parlament sədri Kaxa Kuçava və digər rəsmi şəxslər də qatılıb.

Qeyd edək ki, olimpiada 23 iyul - 8 avqust tarixlərində keçiriləcək.

## ÖLKƏNİN XARİCİ TİCARƏT DÖVRİYYƏSİNİN DƏYƏRİ 21,3 % ARTIB




Milli Statistika İdarəsinin hesabatına əsasən, bu ilin I yarısında Gürcüstanın xarici ticarət dövriyyəsinin dəyəri 6 212,1 milyon ABŞ dolları təşkil edib.

Sənədə əsasən, bu, ötən ilin eyni dövrünə nisbətdə 21,3 % çoxdur.

Yanvar-iyunda ölkənin ixracının dəyəri 25,5 % artaraq 1 887,5 milyon dollar, idxalının dəyəri isə 19,5 % artaraq 4 324,6 milyon dollar olub.

Hesabat dövründə xarici ticarətdə yaranan kəsir 2 437,2 milyon dollar təşkil edib ki, bunun da ümumi xarici ticarət dövriyyəsindəki payı 39,2 % olub.

## BAŞ EPİDEMİOLOQ: BÜTÜN BAĞÇA, MƏKTƏB MÜƏLLİMLƏRİ PAYIZA QƏDƏR PEYVƏN OLUNMALIDIRLAR

Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze Dövlət Qurumlararası Koordinasiya Şurasının iclası başa çatdıqdan sonra keçirilmiş brifinqdə peyvəndin əhəmiyyətindən danışaraq bildirib ki, uşaq bağçaları, məktəb və universitetlərin əməkdaşları payıza qədər peyvəndin hər iki dozasını vurdurmalıdırlar.

Onun sözlərinə görə, Tibb Universiteti təşəbbüslə çıxış edib və tələbələri, professor-müəllimləri peyvənd olunmağa çağırıb.




*"Əhali ilə daha çox məlumatlandırıcı görüşlər keçirmək lazımdır. Peyvənd olunmaq hər bir müəssisənin və insanın məsuliyyətidir. Məsələn, bu gün Tibb Universiteti çox yaxşı təşəbbüs irəli sürdü. Anons etdi ki, tələbələr və professor-müəllimlər payıza qədər peyvənd olunsunlar və bu, başqa universitetlərə də çağırış idi. Bu, çox yaxşı təşəbbüsdür.*

*Xatırladaq ki, ölkədə 100 000-dən artıq tələbə var. Bizim tələbələr xarici universitetlərə gedəndə hamısından xahiş edirlər ki, iki dəfə peyvənd olunsunlar. Ona görə, yaxşı olar ki, biz payızı təhlükəsiz universitetlərlə, bağçalarla və məktəblərlə qarşılayaq. Bu o deməkdir ki, bütün uşaq bağçası əməkdaşları, bütün məktəb müəllimləri, bütün universitet tələbələri və müəllimləri iki dəfə peyvənd vurdurmuş olmalıdırlar. Bu çox ciddi olacaq"*, - deyə Amiran Qamkrelidze bildirib.

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"**

**Redaktor:** Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.